**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 404**

**Bakı şəhəri, 19 sentyabr 2018-ci il**

### “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 mart tarixli 36 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

“İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1135-VQD nömrəli Qanununun tətbiqi və “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 16 noyabr tarixli 814 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 122 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR**:

“İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 mart tarixli 36 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 3, maddə 168; 2013, № 5, maddə 579) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin qərarla təsdiq edilmiş "İnteqral sxem topologiyalarının dövlət qeydiyyatına alınması və şəhadətnamənin verilməsi Qaydaları" üzrə:

1.1. 1.1-ci bənddə "Müəllif Hüquqları" sözləri "Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin;

1.2. Qaydalara Əlavədə - hər iki halda "Müəllif Hüquqları" sözləri "Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin.

2. Həmin qərarla təsdiq edilmiş "Qeydiyyata alınmış inteqral sxem topologiyalarının Dövlət Reyestrinin aparılması Qaydaları"nın 2-ci hissəsində "Müəllif Hüquqları" sözləri "Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**